MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 782/785**
**ORCID: 0009-0009-2116-6580**
**https://doi.org/10.52094/BEVD5452**

**Gülnar Verdiyeva Əlfi qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**gulnar.verdiyeva@admiu.edu.az**

# AZƏRBAYCAN MUĞAM MƏKTƏBLƏRİNİN TARİXİ VƏ İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Muğam mədəniyyətində zamanla formalaşmış müxtəlif baxışlar ümumi bir sistem kimi birləşərək muğam məktəblərinin yaranmasına və təşəkkülünə ciddi təsir göstərmişdir. Şuşa-Qarabağ, Bakı-Abşeron və Şamaxı-Şirvan muğam məktəblərinin hər biri özünəməxsus yanaşma tərzi və fərdi ifaçılıq xüsusiyyətləri ilə Azərbaycan muğam sənətinə rəngarənglik gətirir və milli irsimizin bütün dünyada tanınmasına xidmət edir. Ayrı-ayrı bölgələrin muğam ifaçılığı ənənələrində müxtəlif muğam şöbə və guşələrinə müraciət olunsa da, onları vahid ifa xəttinə bağlayan səciyyəvi xüsusiyyətlər də mövcud idi.

**Açar sözlər:** Muğam, Şuşa, Bakı, Şamaxı, ifaçılıq xüsusiyyətləri.

Azərbaycanın musiqi mədəniyyətində xalqın mənəvi düşüncə tərzinin göstəricisi olan muğam sənəti əsrlərdən bəri böyük inkişaf yolu keçərək bu günümüzə qədər gəlib çıxmış, zaman keçdikcə bu sənət nümunəsinə maraq daha da artmış, illərlə öz aktuallığını itirməmişdir. Yarandığı dövrdən indiyə kimi böyük bir yol keçmiş muğam sənəti öz təbiəti etibarilə sərbəst olduğu üçün variantlılığa meylli olmuş, dəyişmiş, fərqli cizgilər kəsb etmiş, müxtəlif ifaçıların fərqli təfsir və improvizə üslubları sayəsində yeni çalarlarla zənginləşmişdir. Hər bir ifaçı fərdi üsluba, özünəməxsus vokal texnikasına malik olduğu üçün təbiəti etibarilə improvizasiyaya və yenilənməyə açıq olan muğam sənəti daim hərəkətdə olmuşdur. Muğam sənəti sadəcə olaraq qorunmamış, yeni boyalar, çalarlar kəsb etmişdir.

Muğam mədəniyyətində zamanla formalaşmış müxtəlif baxışlar ümumi bir sistem kimi birləşərək muğam məktəblərinin yaranmasına və təşəkkülünə ciddi təsir göstərmişdir.

Orta əsrlər dövründə muğamın şifahi ənənəyə əsaslanan professional musiqi sahəsi kimi formalaşması daha aydın şəkildə üzə çıxmağa başlayır. Həmin mərhələdə muğam peşəkar sənətkarların ifasında həm sırf instrumental, həm də vokal-instrumental icra formalarında təsdiqlənir. Həmin dövrdə yaşayıb yaradan musiqişünas alimlərin böyük əksəriyyəti eyni zamanda, peşəkar ifaçı kimi də ad qazanmışdılar. Səfiəddin Urməvi, Əbdülqadir Marağayi kimi alimlərin mahir ud ifaçısı kimi tanınmaları dediklərimizə sübutdur.

Müəyyən edilir ki, həmin tarixi mərhələdə Azərbaycan və ümumilikdə Orta Asiya musiqişünaslarının nəzəri traktatlarında instrumental ifa praktikasına, muğamın struktur-semantik şöbələrinə və bu şöbələrin icra texnologiyasını müəyyən edən xüsusiyyətlərə sistemli şəkildə toxunulmuşdur.

Orta əsr Şərq musiqi ifaçılığı, müxtəlif məktəblərin və üslubların formalaşdırdığı çoxqatlı musiqi mühitinə malik idi. Bu sistemin inkişafında tanınmış ustad ifaçıların fəaliyyəti xüsusi əhəmiyyət daşıyırdı və onların arasında müxtəlif xalqlara mənsub olan musiqi ustaları da var idi. Görkəmli ifaçıların iştirakı ilə keçirilən ənənəvi müsabiqələrlə yanaşı, səyyar musiqiçilərin ifaları da müsəlman dünyasının musiqi mədəniyyətləri arasında qarşılıqlı inteqrasiyanın gücləndirilməsinə səbəb olurdu.

XX əsrin əvvəllərinə qədər Azərbaycan muğam ifaçılığının təsnifatında bölgü ərazilər üzrə aparılmışdır – muğam sənətinin inkişafı böyük şəhərlərin adı ilə bağlanmış, həmin şəhərlərdə özünəməxsus ifaçılıq ənənələri formalaşmışdır.

Azərbaycanın musiqi mədəniyyətinin inkişafı müxtəlif bölgələrdə fəaliyyət göstərmiş Qarabağ-Şuşa, Şirvan-Şamaxı, Abşeron-Bakı, həmçinin Cənubi Azərbaycan və Təbriz musiqi məclislərinin fəaliyyəti ilə sıx bağlıdır. Bu məclislər hərəsi öz-özlüyündə musiqi yaradıcılığını zənginləşdirərək, tariximizdə özünəməxsus iz qoymuş, spesifik üslub xüsusiyyətləri və fərqli məktəb ənənələrinin formalaşmasına şərait yaratmışdır.

Azərbaycan muğam sənətinin inkişafında özünəməxsus ifa üslubu və estetik baxışları ilə seçilən muğam məktəblərinin əsas məqsədi muğamın öyrədilməsi, həmçinin, muğam ifasının emosional təfsirinin qorunub saxlanması məqsədini güdürdü.

Azərbaycanda muğam sənəti qədim zamanlardan öz inkişafına qədəm

qoysa da, məktəb şəklində formalaşması XX əsrin ikinci yarısına təsadüf edir. Bu məktəblərin əsas xüsusiyyəti ustad-şagird zəminində yaşamasıdır. Muğam məktəblərinin hər biri fərdi üslubu, ifaçılıq xüsusiyyəti və estetik baxışlarına görə bir-birindən fərqlənir.

Şuşada "Nəvvabın məclisi", Bakıda "Məşədi Məlik Mənsurovun salonu" Şamaxıda isə "Mahmud ağanın dərnəyi" Azərbaycan muğam sənətinin inkişafında böyük rol oynamış məclislər idi.

Azərbaycanda muğam ifaçılıq sənətinin mərkəzi nöqtəsi Qarabağ bölgəsinin Şuşa şəhəri olmuşdur. İlk muğam məktəbinin vətəni də Şuşa hesab olunur. Qeyd etmək lazımdır ki, Şuşa yalnız musiqi sahəsində deyil, poeziya və incəsənət sahəsində də Azərbaycanın mədəni paytaxtı idi.

İlk dəfə XIX əsrin ortalarında dini məqsədlərə xidmət edən muğam məktəbi Xarrat Qulu tərəfindən yaradılmışdır. Xarrat Qulu gözəl səsi olan gəncləri dini mərasimlərdə iştirak etmək üçün məktəbə cəlb edirdi, onları ifaçı kimi sərbəst şəkildə fəaliyyət göstərməyə hazırlayırdı. Xarrat Qulunun musiqi məktəbi bir sıra ustad sənətkarların Hacı Hüsü, Məşədi İsi, Əbdülbağı Zülalov (Bülbülcan), Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Dəli İsmayıl və tarzən Sadıqcan kimi istedadlı musiqiçilərin yetişməsinə səbəb olmuşdur. Bu ustad sənətkarlar muğamın incəliklərini öyrənmək üçün, məhz həmin məktəbdə hazırlıq keçmişlər. Sonralar muğamın tədris olunduğu musiqi məktəblərinin meydana çıxmasında Xarrat Qulu məktəbinin əhəmiyyətli rolu olmuşdur.

Muğam sənətinin inkişafında Xarrat Qulu ilə yanaşı Kor Xəlifənin məktəbi də müəyyən mərhələ təşkil etmişdir. "Kor Xəlifə" ləqəbi daşıyan Molla Əli Qarabaği tərəfindən açılmış bu məktəb həm Qarabağda, həm də İranda tanınırdı, bu məktəb də dini məqsəd daşısa da, burada həmçinin, musiqi nəzəriyyəsinin sirləri, klassik muğamlarımızın oxunması, xanəndəlik sənətinin incəlikləri, musiqi alətlərində ifa etmə texnikası öyrədilirdi. Tez-tez poeziya və muğam müsabiqələri təşkil olunduğu bu məktəbdə şagirdlər həm musiqişünas, həm də ədəbiyyatçı kimi yetişirdi. Həvəsləndirmək məqsədilə istedadı ilə seçilənlər mükafatlandırılırdılar. Həm Qarabağda, həm də İranda məşhurlaşmış bu məktəb Qarabağ camaatının mədəni inkişafına böyük təsir göstrmiş, Şuşanın Zaqafqaziyanın musiqi mərkəzinə çevrilməsi prosesində əhəmiyyətli rol oynamışdır. Qarabağ bölgəsində yaşayan muğam ifaçılarının özünəməxsus cəhətləri zəngin improvizə qabiliyyəti, geniş səs diapozonu, rəngarəng melodik ornamentlərin istifadəsi, bir sözlə, unikal vokal ustalığı ilə bağlı idi. Bu bölgədə

meydana gəlmiş üslub sonradan Qarabağ muğam məktəbi kimi təşəkkül tapır və digər bölgələrdə yaranmış muğam məktəblərinə böyük təsir göstərir.

Azərbaycanda mühüm ifaçılıq mərkəzlərindən bir də Bakı-Abşeron muğam məktəbidir. Qarabağ məktəbindən sonra yaranmış bu məktəb özünəməxsus üslubu və peşəkar ifaçılıq xüsusiyyətləri ilə fərqlənirdi. Bakı şəhərində və ətraf kəndlərdə təşkil olunmuş yığıncaqlarda şairlər və muğam ustaları bir yerə yığışar, incəsənətlə bağlı maraqlı söhbətlər aparardılar. Yığıncaqlardan birinin təşkilatçısı musiqiçilər ailəsindən çıxmış istedadlı sənətkar Məşədi Məlik bəy Mənsurov idi. Bu yığıncaqların məkanı Mənsurovun İçəri Şəhərdəki evi idi, bir çox istedadlı sənətkarlar bir araya toplaşaraq muğamat oxuyur, muğam sənəti ilə bağlı söhbətlər aparırdılar. Mənsurovun yığıncaqlarında iştirak etmək üçün Qarabağın, Şirvanın və İranın məşhur sənətkarları Bakıya gəlirdilər. Məclislərdə Mənsurovla dostluq münasibətində olan tarzən Sadıqcan, Hacı Hüsü, Bülbülcan, Məşədi Zeynal kimi sənətkarlar da iştirak edirdilər.Burada muğamların qaydalara əsasən, düzgün və qüsursuz ifa olunması ilə bağlı fikirlər yürüdülür, faydalı məsləhətlər verilirdi. Bakıda və Abşeron bölgəsində meydana gələrək təşəkkül tapmış Bakı-Abşeron muğam məktəbi muğam sənətinin inkişafı prosesində əhəmiyyətli mövqeyə malik olmuşdur. Qarabağ məktəbindən fərqli olaraq bu məktəbin səciyyəvi xüsusiyyətləri ifa tərzinin sakit və təmkinli olması, ifa zamanı ciddi qaydalara əsaslanması, poeziya ilə musiqinin vəhdətinin ön plana keçməsi ilə bağlıdır. Şəhər mədəniyyətini tərənnüm edən Bakı-Abşeron muğam məktəbi, əsasən tar, kamança və qaval triosunun müşayiətilə ifa olunaraq emosional ifadəliliyi ilə seçilir. İfada səliqə, qaydalara ciddi şəkildə riayət etmə Bakı məktbi üçün əsas şərt hesab olunur. Məktəbin əsas xüsusiyyətlərindən biri ifanın Bakı ləhcəsində olması, oxuma tərzinin dəqiq frazalar əsasında qurulmasıdır.

Bakının bir sıra tanınmış muğam ifaçıları Azərbaycanın müxtəlif bölgələrində keçirilən məclislərdə, konsertlərdə iştirak edir, bununla da, həm öz məktəblərinin ifa üslubuna xas xüsusiyyətləri yayır, həm də Şamaxı, Şuşa və Cənubi Azərbaycanın muğam ənənələrinə aid ifa elementlərini Bakıya gətirirdilər.

Azərbaycanın tanınmış muğam ifaçılarının böyük əksəriyyəti, yaşadığı coğrafi bölgədən asılı olmayaraq, Bakıda çıxış etmiş və ifa sənətinin qüdrətini göstərmişlər. Bakı muğam ənənəsində Mirzə Fərəc Rzayev, Mansurovlar

nəslindən olan ifaçılar, Əhməd Bakıxanov, Qurban Primov, xanəndə Əlzahab tərəfindən təqdim olunan muğam tərkibləri xüsusi yer tutmuşdur.

Muğamların ifa üslubları müxtəlif olsa da, Bakıda vahid milli muğam ifaçılığı ənənəsinin formalaşması üçün hər cür şərait yaranmışdı. Bu mənada, ayrı-ayrı bölgələrin ənənələrində müxtəlif muğam şöbə və guşələri olsa da, onları vahid ifa xəttinə bağlayan səciyyəvi xüsusiyyətlər də mövcud idi.

Bakı-Abşeron məktəbi muğamın professional musiqi sənəti kimi təqdim olunmasında mühüm rol oynamışdır.

Muğam sənətinn inkişafında üçüncü məktəb Şamaxı-Şirvan muğam məktəbi hesab olunur.

Şirvan zonasında xanəndəlik sənətinin inkişafında əhəmiyyətli rol oynayan musiqili poetik məclislərdən ən məşhuru mülkədar Mahmud ağa tərəfindən yaradılmış məclis idi. Bununla yanaşı Şamaxıda “Beytüs-səfa” adlanan məclis də fəaliyyət göstərirdi. Seyid Əzim Şirvaninin rəhbərlik etdiyi bu məclisin üzvlərinə onunla dostluq münasibətində olan Mahmud ağa himayədarlıq edirdi. Musiqini sevən, tar alətində çalmağı bacaran və muğamlara yaxşı bələd olan Mahmud ağa öz malikanəsində musiqili gecələr keçirdir, müsabiqələr təşkil edir, qalibləri qiymətli hədiyyələrlə təltif edirdi. Mahmud ağanın musiqi məclisinin şöhrəti yalnış Qafqazda deyil, onun hüdudlarından kənarda da yayılmışdı. Bu məclislərdə Qarabağ, İran və Tiflisdən musiqiçilər gəlirdilər. Hacı Hüsü və Sadıqcan bu məclislərin daimi qonağı idi. Fransız yazıçısı Aleksandr Düma və rus rəssamı knyaz Qaqarin Mahmud ağanın qonağı olmuş və onun qonaqpərvərliynə heyran qalmışdı.

Xanəndələrdən Mirzə Məhəmmədhəsən, Məbud, Davud Səfiyarov, Mehdi,tarzənlərdən isə Hümayi məhz Mahmud ağanın məclisində ifaçılığın sirlərini öyrənmiş, yetişib püxtələşərək sərbəst şəkildə ifaçılıqıa məşğul olublar.

Şamaxı muğam məktəbinin üslub xüsusiyyətlərindən danışarkən qeyd edə bilərik ki, digər reqionların ifa tərzindən fərqli olaraq burada daxili duyğuların ifadəsi, dərin lirik əhval-ruhiyyə ön plana keçir. Şamaxı üslubunda melizmlərdən istifadə də fərqli xarakter daşıyır. Qarabağ məktəbinin ifaçıları böyük səs diapazonuna və geniş səs imkanlarına malik olmaları səbəbindən melizmlərdən sərbəst şəkildə və geniş istifadə edirlərsə, Bakı məktəbində bunun əksinə olaraq, melizmlərdən nizamlı şəildə, yalnız lazım bildilkləri zaman, bir sözlə, az işlədilir. Şirvan məktəbi isə bu baxımdan orta mövqe tutaraq melodiyanın əsas xəttini qoruyur, onu yüngül bəzəklərlə canlandırır.

İmprovizasiya da Qarabağ məktəbində olduğu kimi əhatəli deyil, daxili duyğunu üzə çıxartmaq üçün kiçik melodik əlavələrdən ibarətdir. Burada məqsəd səsin gücünü və diapozonu nümayiş etdirmək deyil, yumşaq tembrlə ürəklərə yol tapmaqdır.

Beləliklə, göründüyü kimi, bölgə olaraq fərqli emosionallığa malik olan bu məktəblərin hər biri özünəməxsus üslub xüsusiyyətləri və ifa tərzi ilə seçilir. Qarabağ məktəbi böyük diapazon, parlaq səs, bəzəklərlə zəngin improvizasiya bacarığı, Bakı məktəbi dəqiq ölçülülük və texniki cəhətdən aramlı və səliqəli ifa, Şamaxı məktəbi isə qüssə motivlərinin ön plana çəkildiyi duyğulu ifa ilə fərqlənir.

XIX əsrin sonlarına aid Abşeron, Qarabağ və ya Şirvan bölgələrinin musiqiçiləri tərəfindən hazırlanmış muğam cədvəlləri müqayisə edildikdə, onların ifaçılıq üslublarındakı fərqlər aydın şəkildə üzə çıxır.

Bədəlbəylinin "İzahlı-monoqrafik musiqi lüğəti" əsərində də bu tip müqayisəli məlumatlara rast gəlmək mümkündür.

Ən çox nəzərə çarpan məqamlardan biri isə "Rast" muğamının fərqli tərkib variantlarıdır. Ü. Hacıbəyli yazır: ""Rast" dəstgahını təşkil edən muğam parçaları müxtəsərən böylədir: Rast, Üşşaq, Hüseynli, Vilayəti, Xocəstə (Şikəsteyi-fars), Əraq, Pəncgah, Qərai, Rast ki, bunların hər parçasına bəzən şöbə, bəzən guşə və bəzən avaz deyilir" [Hacıbəyli, Ü., 2019, s. 138]. Ramiz Zöhrabov isə guşə və şöbəni fərqləndirərək yazır: Guşə şöbəyə nisbətən kiçikhəcmli, improvizə səciyyəli muğam epizodudur" [Zöhrabov, R., 1991, s. 95]. Əfrasiyab Bədəlbəyli "Rast" muğamını tədqiq etmiş, həm ayrı-ayrı xalqların, həm də təxminən eyni dövrə mənsub olan Azərbaycan məktəblərinin musiqi təcrübəsini müqayisə edərək, muğamın hissələri arasındakı fərqli cəhətləri üzə çıxarmışdır.

| **"Məcməüş-şüara" – Bakı (Abşeron)** | **"Məclisi-xamuşan" – Şuşa (Qarabağ)** | **"Beytüs-Səfa" – Şamaxı (Şirvan)** |
|---|---|---|
| ***"Rast" dəstgahı*** | ***"Rast" dəstgahı*** | ***"Rast" dəstgahı*** |
| Maye-Rast | Rast | Rast |

| Novruz-rəvəndə | Pəncgah | Üşşaq |
|---|---|---|
| Rast | Vilayəti | Mücri |
| Üşşaq | Mənsuriyyə | Hüseyni |
| Hüseyni | Zəmin-xara | Vilayəti |
| Vilayəti | Rak-hindi | Siyahi-ləşgər |
| Xocəste | Azərbaycan | Məsihi |
| Xavəran | Əraq (İraq) | Dehri |
| Əraq (İraq) | Bayatı-türk | Xocəstə |
| Pəncgah | Bayatı-Qacar | Şikəsteyi-fars |
| Rak | Mavərənnəhr | Rak-hindi |
| Xavəran | Bale-kəbutər | Rak-Xosravani |
| Əmiri | Hicaz | Saqinamə |
| Məsihi | Şahnaz | İraq |
| Rast | Əşiran | Təsnif-Qərayi |
| | Kərkuki | Zəngi-şotor |
| | Rast | Nəgmeyi-hindi |
| | | Mənəvi |
| | | Kabili |
| | | Rast |

Firudin Şuşinski Zülfü Adıgzəlovun “Rast” ifası haqqında yazırdı: “Zülfü “Rast” üzərində zərgər ustalığı ilə işləyirdi. ...Əgər Zülfü muğamın mayəsində dinləyicini səfərbər edib ona təmiz fikirlər, pak duyğular aşılayırsa, muğaman “Vilayət” şöbəsində mərdlikdən, insan ləyaqətindən söz açaraq dinləyicinin ürəyini sevinclə doldururdu. “Şikəsteyi-fars”da isə müğənni insan mənəviyyatının gözəlliyini, incəliyini təlqin etməklə dinləyicinin gələcəyə olan inmaını qüvvətləndirirdi. “Əraq-pəncgah” şöbələrində isə Zülfü insanı qətiyyətli, mübariz olmağa çağırırdı” [Şuşinski, F., 1985, s. 345]. Mənbələr göstərir ki, Azərbaycanın ayrı-ayrı şəhərlərində geniş vüsət almış konsertlərin, musiqi məclislərinin, toy-düyünlərin muğam ifaçılıq ənənələrinin formalaşmasında böyük əhəmiyyəti olmuşdur. Muğamların ifa xüsusiyyətləri araşdırıldıqda aydın görünür ki, bu ənənə müxtəlif şəhər mühitlərində

formalaşmış musiqi məktəblərinin təsiri altında inkişaf etmişdir. Hər bir bölgənin özünəməxsus ifa tərzi olsa da, müxtəlif dəstgahların şöbə və guşələri ümumi Azərbaycan muğam mədəniyyətinin ortaq köklərindən qaynaqlanır.

Müasir dövrdə muğamın inkişaf mərhələləri izlənildikdə aydın olur ki, bölgələr üzrə tərkib və ifa fərqləri daha çox tarixi inkişaf prosesinin nəticəsi kimi müəyyənləşdirilir və ümumi milli ənənəyə daxil olan təbii bir zənginlik kimi dəyərləndirilərək, milli irsimizin bütün dünyada tanınmasına xidmət göstərir.

**Ədəbiyyat siyahısı**

1. Hacıbəyli Üzeyir. Azərbaycan xalq musiqisinin əsasları. – Bakı: “Şərq-Qərb”, 2019
2. Zöhrabov Ramiz. Muğam. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991
3. Şuşinski Firudin. Azərbaycan xalq musiqçiləri. – Bakı: Yazıçı, 1985

**Gulnar Verdiyeva Alfi gizi**

**History and Performance Features of Azerbaijani Mugham Schools**

**Summary:** The diverse perspectives that developed over time within mugham culture and were united into a single system have had a significant impact on the creation and development of mugham schools. Each of the mugham schools – the Shusha-Karabakh, Baku-Absheron, and Shamakhi-Shirvan – with its unique performanse style ahd approach  adds diversity to Azerbaijani mugham art and conrtibutes to the worldwide recognition our national musical heritage. Although performance traditions in individual regions included numerous variations of parts and sections of a particular mugham, there were also specific characteristics that united them into a single performance style.

**Key words:** mugham, Shusha, Baku, Shamakhi, performance characteristics

**Гюльнар Вердиева Алфи кызы**

**История и исполнительские особенности азербайджанских мугамных школ**

**Резюме:** Различные взгляды, сформировавшиеся с течением времени в мугамной культуре и объединенные в единую систему, оказали серьезное

влияние на создание и формирование школ мугама. Каждая из школ мугама – Шуша-Карабахская, Бакинско-Абшеронская и Шемаха-Ширванская – благодаря своим индивидуальным исполнительских особенностям и подходом придает азербайджанскому мугаму разнообразие и способствует признанию нашего музыкального наследия во всем мире. Хотя традиции исполнения в отдельных регионах включали в себя многочисленные варианты частей и разделов конкретного мугама, существовали также специфические особенности, которые объединяли их в единое направление исполнения.

**Ключевые слова:** Мугам, Шуша, Баку, Шемаха, исполнительские особенности.

Məqalənin redaksiyaya daxilolma tarixi: 28.11.2025

Məqalənin çapa qəbul olunma tarixi: 03.12.2025